**AZƏRBAYCAN RESPUBLİKASI**

**BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ**

**SƏRƏNCAMI**

**№ 205** **"09" Dekabr 2024-cü il**

**Binəqədi Rayon İcra Hakimiyyəti başçısı yanında Dini İşlər üzrə Komissiyanın yeni tərkibinin təsdiq edilməsi haqqında**

Binəqədi Rayon İcra Hakimiyyəti başçısı yanında Dini İşlər üzrə Komissiyanın fəaliyyətinin gücləndirilməsi məqsədilə "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununun 28-ci maddəsini və "Yerli İcra Hakimiyyətləri haqqında Əsasnamə"nin 3.14.1 və 6.8-ci bəndlərini rəhbər tutaraq

**Qərara alıram:**

1. Binəqədi Rayon İcra Hakimiyyəti başçısı yanında Dini İşlər üzrə Komissiyanın tərkibi aşağıdakı kimi təsdiq edilsin:
   Komissiyanın sədri – Hacıbaba Adil oğlu Babayev-Binəqədi RİH başçısının birinci müavini
   Komissiyanın katibi – Nicat Elman oğlu Allahverdiyev – Binəqədi RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri
   Komissiyanın üzvləri:
   Rauf Arif oğlu Həsənov -Binəqədi RİH başçısı Aparatının Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri
   Elnur Məmməd oğlu Məmmədov - Binəqədi RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı
   Rasim Əbilfət oğlu Qocayev - Binəqədi Rayon Polis İdarəsinin Əməliyyat işi üzrə rəis müavini, polis kapitanı
   Anar Alqış oğlu Nuriyev - Dövlət Təhlükəsizliyi Xidmətinin Binəqədi Rayon İdarəsinin şöbə müdiri,
   Asəf Arif oğlu Şahniyarlı - Binəqədi rayon prokurorunun böyük köməkçisi, kiçik ədliyyə müşaviri
   Akif Bəşir oğlu Rəfiyev – Rayon Ağsaqqallar Şurasının sədri
   Rafayil Əli oğlu Abbasov – Binəqədi "Came" məscidinin imamı, dini icmasının sədri
2. Binəqədi Rayon İcra Hakimiyyəti başçısı yanında Dini İşlər üzrə Komissiyaya tapşırılsın:

- Dini fəaliyyət sahəsində dövlət siyasətinin həyata keçirilməsini, aidiyyəti orqanların dini qurumlarla bağlı fəaliyyətinin əlaqələndirilməsini təmin etsinlər.

3. Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri vəzifəsinin səlahiyyətlərini müvəqqəti icra edən, məsləhətçi Badam Cəfərovaya tapşırılsın ki, Sərəncamın aidiyyəti üzrə çatdırılmasını təmin etsin.

Scanned with CamScanner

4. Binəqədi Rayon İcra Hakimiyyəti başçısının 22 fevral 2022-ci il tarixli 32 nömrəli Sərəncamı qüvvədən düşmüş hesab edilsin.
5. Bu Sərəncamın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Elxan Allahverdiyev**

**ƏSLİ İLƏ DÜZDÜR:**

**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri vəzifəsinin səlahiyyətlərini müvəqqəti icra edən, məsləhətçi** **Badam Cəfərova**

Azərbaycan Respublikası Bakı şəhəri Binəqədi rayon İcra Hakimiyyəti
SƏNƏDLƏR ÜÇÜN

Scanned with CamScanner